# *138* *Yehovadır ismin*

## (Zəbur 83:18)

1. Ulu, gerçək Allah,
   Sevginlə xəlq etmisən.
   Aləmlərin Rəbbisən,
   Yehovadır ismin.
   Sənin xalqın olmaq
   Şərəfdir, iftixardır.
   Hüsnün nə ecazkardır!
   Şölə saçır şanın.

*(NƏQARƏT)*

*Yehova, Yehova,*
*Sən təksən, ey Xuda!*
*Var olan Rəbb, yox Sənə tay,*
*Bu cümlə-cahanda.*
*Tərifə, həmdə layiqsən,*
*Bunu bəşər bilsin.*
*Yehova, Yehova,*
*Aşkardır qüdrətin Sənin.*

2. Sadiq qullarını
   Kim istəsən edirsən,
   Doğru yol göstərirsən,
   Yehovadır ismin.
   Lütfünlə, İlahi,
   Bizi şahid seçmisən.
   Qürur duyuruq ki, Sən
   Bizə «xalqım» dedin.

*(Nəqarət)*

**(Həmçinin baxın: 2 Saln. 6:14; Zəb. 72:19; Əşy. 42:8.)**

*snylpnw*-AJR № 138 9/14
© 2014 Watch Tower Bible and Tract Society of Pennsylvania